Azərbaycan Respublikasının Mərkəzi Bankı

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu

german cooperation DEUTSCHE ZUSAMMENARBEIT

Finanzgruppe Sparkassenstiftung für internationale Kooperation

Almaniya Beynəlxalq Əməkdaşlıq üzrə Əmanət Kassaları Fondu

---

Bakı şəhəri 02 fevral 2017-ci il

# Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Almaniya Beynəlxalq Əməkdaşlıq üzrə Əmanət Kassaları Fondunun "Gənc alimlər və maliyyə savadlılığı" birgə mükafat müsabiqəsi haqqında

## ELAN

Azərbaycanın innovasiyalı inkişaf strategiyası mürəkkəb iqtisadi və qlobal rəqabət şəraitində ölkənin elmi potensialının davamlı şəkildə yüksəldilməsini, gənc, yaradıcı və yüksək intellektual səviyyəli insanların istedadından maksimum şəkildə istifadə olunmasını zəruri edir.

Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi və elmi-mədəni inkişafı ilə sıx əlaqədədir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla, yeni çalarlarla davam etdirilir.

Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bu istiqamətdə qarşıya çıxan problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, həmçinin beynəlxalq aləmə inteqrasiyasını sürətləndirmək dövlətin bu gün qarşıya qoyduğu əsas prioritetlər sırasında ön yerlərdən birini alır.

Gənclərin intellektual yüksəlişinə və ixtisaslı gənc kadrların hazırlanmasına qoyulan investisiyaların reallaşdırılması məqsədi ilə son illərdə gənclərin elmə daha çox cəlb olunması, onların xarici ölkələrdə ali təhsil almasına və elmi təcrübə keçməsinə, nəticədə yüksək ixtisaslı kadr kimi formalaşmasına, sosial problemlərinin həllinə imkan yaradan mühüm dövlət proqramları hazırlanıb, onlarla sərəncam və fərman imzalanıb. Son illər ölkənin iqtisadi, ictimai-siyasi, elmi-mədəni həyatında gənclərin fəal iştirakı, yeni uşaq, tələbə və gənclər təşkilatlarının formalaşması və onların inkişafı üçün hər cür şəraitin yaradılması, gənclərin sosial problemlərinin həlli, beynəlxalq əməkdaşlıq sahəsində onların layihələrinin həyata keçirilməsi, gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin qurulması, Azərbaycanda bununla bağlı mötəbər tədbirlərin, forumların keçirilməsi, daşıyıcısı gənclər

olan mədəniyyətlərarası dialoqun təşkili istiqamətində qətiyyətli addımlar atılıb, mühüm qərarlar qəbul edilib.

Ölkə gənclərinin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik ruhunda tərbiyə olunması, cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirakı, elmi, intellektual və yaradıcı potensiallarının ümummilli məsələlərin həllinə yönəldilməsi müasir dövrün tələbi olaraq qalır.

Gənclərin maarifləndirilməsi, elmi fəaliyyətinin stimullaşdırılması, onların nailiyyətlərinin qiymətləndirilməsi istiqamətində müxtəlif dövlət və hökumət qurumları da birgə fəaliyyət göstərir, çoxsaylı tədbirlər və müsabiqələr təşkil edirlər.

Azərbaycan Respublikasının Mərkəzi Bankı özünün təşkilati missiyasına əsasən 2010-cu ildən "Maliyyə savadlılığı" üzrə layihənin icrasına start vermişdir. Layihənin əsas məqsədlərindən biri maliyyə və iqtisadi savadlılığın ictimai dəyər kimi tanıdılmasıdır. Maliyyə savadlılığı maliyyə istehlakçılarının öz rifah hallarını yaxşılaşdıra bilməsi üçün maliyyə məhsulları və konsepsiyalarını başa düşmək, maliyyə risklərini və imkanlarını qiymətləndirmək, məlumatlı seçimlər etmək və digər səmərəli addımlar atmaq üzrə bacarıqlar toplusudur.

Mərkəzi Bankın Tədqiqatlar və İnkişaf Mərkəzinin "Maliyyə savadlılığı" layihəsi çərçivəsində beynəlxalq təcrübənin öyrənilməsi, donor təşkilatlarla münasibət yaradılması, tələbə və jurnalistlər üçün maarifləndirici tədbirlərin aparılması, Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birgə məktəblərdə görüşlərin keçirilməsi, kurikulum üçün tövsiyələrin hazırlanması, "Banklar məktəblərə, məktəblilər banklara" adlı silsilə tədbirlərin keçirilməsi, VISA təşkilatı və Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə birgə "İqtisadi futbol" interaktiv oyununun təşkil olunması, "Beynəlxalq Əmanət Günü" adlı tədbirin keçirilməsi və s. kimi işlər yerinə yetirilmişdir. Layihənin əsas hədəf qrupları məktəblilər, geniş ictimaiyyət, iqtisadiyyat üzrə ixtisaslaşan jurnalistlər, bank işçiləri, bank işi üzrə təhsil alan tələbələr və başqalarıdır.

"Maliyyə savadlılığı" layihəsinin məqsədi ölkənin sosial-iqtisadi inkişafının gücləndirilməsi və Azərbaycanda bankçılıq sisteminin inkişafına dəstək verilməsi, ölkədə iqtisadi və maliyyə savadlılığının artırılması, maliyyə savadlılığının ictimai dəyər kimi tanıdılması və insanların davranışlarında müvafiq dəyişiklik yaradılmasıdır.

Mərkəzi Bankın Tədqiqatlar və İnkişaf Mərkəzi maliyyə savadlılığı üzrə Almaniya Beynəlxalq Əməkdaşlıq üzrə Əmanət Kassaları Fondu (SBFİC) ilə əməkdaşlıq barədə razılıq əldə edib. SBFİC ilə əməkdaşlıq ölkəmizin gələcək nəslinin erkən yaşlarda iqtisadiyyat və maliyyə biliklərinə yiyələnməsinə və ölkə əhalisinin maliyyə savadlılığının səviyyəsinin yüksəldilməsinə xidmət edəcəkdir.

Elmin İnkişafı Fondu da fəaliyyətə başladığı ilk gündən etibarən qrant müsabiqələri yolu ilə ölkədə elmin inkişafını çevik şəkildə dəstəkləmək, Azərbaycanda əldə olunan elmi nəticələri ölkə hüdudlarından kənarda tanıtmaq, elmi təşkilat və qurumlarda elmi tədqiqatlarla bağlı maddi-texniki cihaz və avadanlıq bazasını ən müasir səviyyədə yeniləmək və ya gücləndirmək, eyni zamanda, gənc kadr hazırlığına xüsusi diqqət yetirmək, müxtəlif elmi tədbirləri təşkil edərək keçirmək, gənc alimlərin xaricdə keçirilən elmi tədbirlərdə,

qısamüddətli təcrübə artırmada iştirakını təmin etmək, elmi nəşrləri dəstəkləmək və başqa bu kimi məsələlərin həllini bir məqsəd kimi müəyyənləşdirib. Bu zaman Elmin İnkişafı Fondu ölkədə elmin inkişafına əlavə və effektiv stimul, çeviklik, yeni yanaşma gətirən bir qurum kimi akademik və təhsil sistemlərində və digər qurumlarda çalışan gənc alimlərin bir araya gəlməsinə, əməkdaşlıq etməsinə xüsusi şərait yaradır.

"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı və bu Proqramın həyata keçirilməsi üzrə Tədbirlər planının 6.3.2 bəndinə əsasən, Elmin İnkişafı Fondu gənc alim və mütəxəssislər üçün müntəzəm olaraq qrant müsabiqələri keçirib və bu ənənə gələcəkdə də davam etdiriləcək. Ölkənin gənc alimləri qrant müsabiqələrində iştirakla yanaşı, Fondun digər müsabiqələrində də yaşlı və təcrübəli həmkarları ilə birlikdə - layihə üzrə yaradıcı kollektivlərin tərkibində elmi-tədqiqat işlərinin yerinə yetirilməsində xüsusi fəallıq göstərirlər. Gənc alimlər Elmin İnkişafı Fondunun mükafat müsabiqələrində də uğurla iştirak edirlər; bu gənclər üçün əlavə maddi və mənəvi stimuldur. Elmin İnkişafı Fondu gənc alimlərin qrantlar yolu ilə dəstəklənməsi prosesində bir sıra dövlət və hökumət qurumları ilə, xüsusilə də, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə sıx əməkdaşlıq edir.

Azərbaycan gənclərinin cəmiyyətin sosial-iqtisadi və mədəni inkişafında rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, gənclərin maarifləndirilməsi, elmi fəaliyyətinin stimullaşdırılması, onların nailiyyətlərinin qiymətləndirilməsi istiqamətində səyləri birləşdirmək, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ni, bu sənədin "7.5.2. Prioritet 5.2. İstehlakçıların maliyyə savadlılığının artırılması və hüquqlarının müdafiəsinin gücləndirilməsi" bölməsinin qarşıya qoyduğu vəzifələri və yuxarıda qeyd olunanları əsas tutaraq, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Almaniya Beynəlxalq Əməkdaşlıq üzrə Əmanət Kassaları Fondu **"Gənc alimlər və maliyyə savadlılığı" birgə mükafat müsabiqəsini** "2 Fevral – Gənclər Günü"ndə aşağıdakı şərtlər daxilində

elan edir:

Müsabiqənin məqsədi: Maliyyə savadlılığı üzrə, xüsusən ölkənin sosial-iqtisadi inkişafının gücləndirilməsi və Azərbaycanda bankçılıq sisteminin inkişafına dəstək, ölkədə iqtisadi və maliyyə savadlılığının artması, maliyyə savadlılığının ictimai dəyər kimi tanınması və insanların davranışlarında müvafiq dəyişiklik yaratmasını əks etdirən aşağıdakı prioritet mövzular üzrə, müsabiqə mövzusuna uyğun ixtisaslaşmış və fəal çalışan **gənc alim və mütəxəssislər tərəfindən müsabiqə müddətində yazılmış orijinal məqalələrin və onların aprobasiyasının** qiymətləndirilməsi, mükafatlandırılması və elmi fəaliyyətinin stimullaşdırılmasıdır:

- Maliyyə savadlılığı və onun effektiv tədrisi yolları;
- Gənclərin maliyyə maarifləndirilməsi üçün model və yanaşmalar;
- Maliyyə maarifləndirilməsinin insanların maliyyə davranışlarına təsiri.

Müsabiqə qaliblərinin mükafatlandırılması

Maliyyə savadlılığı sahəsində dərc olunmuş və qalib olaraq seçilmiş **ən yaxşı elmi işlərin** aşağıdakı nominasiyalar üzrə diplom və pulla mükafatlandırılması nəzərdətutulmuşdur:

- 1-ci yer: 1500 manat (1 mükafat)
- 2-ci yer: 1000 manat (2 mükafat)
- 3-cü yer: 500 manat (3 mükafat)

Müsabiqənin meyarları:

Mükafat müsabiqəsində sənədlərin təqdim olunma günü yaşı 35 olan və ya 35-dən aşağı olan, əlaqəli sahədə ali təhsilli (ən azı magistr dərəcəsinə malik olan) gənc alim və mütəxəssislər bərabər əsaslarla və şəffaflıq qorunmaqla iştirak edə bilərlər.

Müsabiqədə AMEA təşkilatlarından, ali təhsil müəssisələrindən, nazirliklərin nəzdindəki elmi-tədqiqat qurumlarından, maliyyə-kredit sistemindəki təşkilatlardan, QHT-lərdən, İKT ilə əlaqəli şirkətlərdən müsabiqə mövzusu üzrə ixtisaslaşmış alim və mütəxəssislər iştirak edə bilərlər.

Müsabiqədə təşkilatçıların nümayəndələri iştirak edə bilməzlər.

Məqalələr Azərbaycan, ingilis və rus dillərində yazıla bilər.

Məqalələr bir və ya bir neçə müəllif tərəfindən (o cümlədən, xarici həmkarlarla birlikdə) yazıla bilər.

Eyni müəllif / həm-müəllif tərəfindən müsabiqəyə bir qayda olaraq 1 iş təqdim edilə bilər. Lakin, eyni müəllif(lər) 2 (və ya 3) məqalə təqdim edərsə və hər iki (və ya üç) məqalə qalib olarsa, yalnız 1 pul mükafatı təqdim ediləcəkdir.

Bu müsabiqə çərçivəsində eyni bir müəllif və ya həm-müəllif iki dəfə mükafatlandırıla bilməz.

Müsabiqəyə sənədlərin təqdimi 1 müəllif/həm-müəllif tərəfindən həyata keçirilə bilər.

Tezis formasında çap olunmuş elmi işlər baxılmaq üçün müsabiqəyə qəbul edilmir.

Qalib olan elmi iş müəlliflər qrupu tərəfindən yerinə yetirilmişdirsə, pul mükafatı Azərbaycan vətəndaşı olan həm-müəlliflər arasında bərabər qaydada bölünür və hər bir yerli və xarici həm-müəllifə diplom verilir. Bu zaman xarici həm-müəlliflərin müsabiqə şərtləri haqqında tam məlumatlandırılması üzrə məsuliyyəti elmi işi müsabiqəyə təqdim edən yerli həm-müəllif(lər) daşıyır.

Məqalənin sonunda (və ya əvvəlində) aşağıdakı mətn verilməlidir: "Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Almaniya Beynəlxalq Əməkdaşlıq üzrə Əmanət Kassaları Fondunun "Gənc alimlər və maliyyə savadlılığı" birgə mükafat müsabiqəsinə təqdim etmək üçün dərc olunur".

Müsabiqənin keçirilmə formatı və müddəti, sənədlərin qəbulu:

Məqalələr qısa müddət ərzində yazılaraq dərc olunmalıdır. Məqalələr yerli və xarici nəşrlərdə dərc oluna bilər. Nəşrlər sırasına sırf elmi jurnallarla yanaşı, xüsusi bülletenlər, ixtisaslaşmış dərgilər, universitet və sahə elmi-tədqiqat institutlarının xəbərləri və topluları və s. daxildir.

Qaliblərin seçilməsi prosesində müsabiqə təşkilatçıları tərəfindən yaradılmış birgə Komissiyanın üzvləri, maliyyə və iqtisadiyyat üzrə tanınmış mütəxəssislər, Elmin İnkişafı Fondunun müstəqil ekspertləri də iştirak edəcəkdir.

Müsabiqəyə təqdim olunmuş məqalələrin mövzusu üzrə 2017-ci ilin fevral-aprel aylarında elmi-kütləvi formada aşağıdakı yollarla aprobasiya keçirilməli və bu haqda müvafiq materiallar müsabiqəyə təqdim olunmalıdır:

- Yığıncaq və seminarlarda, ictimaiyyətlə görüşlərdə, geniş auditoriyalarda çıxışlarda;
- Elmi-kütləvi çıxışlar;
- Televiziya, radio, internet-TV-lərdə çıxışlar;
- KİV-lərdə müsahibələr, yazılar.

Aprobasiya, təbliğat işində müsabiqə təşkilatçıları yaxından iştirak edəcək, müvafiq şərait yaradılmasına mümkün kömək edəcəkdir.

Müsabiqəyə sənədlər 2017-ci il 12 fevral tarixindən başlayaraq qəbul olunacaqdır. Sənədlərin son qəbul günü 2017-ci il 25 aprel, saat 17.00-dır.

Nəticələr 2017-ci ilin may ayının ilk 10-günlüyündə açıqlanacaq, xüsusi təqdimat mərasimində mükafatlar təqdim ediləcəkdir.

Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan sənədlər müsabiqənin texniki ekspertiza mərhələsindən qəti olaraq keçmir və ekspertiza mərhələsinə

buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər bir qayda olaraq geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən ekspertiza mərhələsində saxta sənəd, imza və məlumatların təqdim olunması müsabiqədən kənarlaşdırılmaya səbəb olur.

Müsabiqədə iştirak üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:

- Müsabiqədə iştirak üçün ərizə;
- Dərc olunmuş məqalə (əsli və surəti);
- Məqalənin nəşri ilə bağlı internet linkləri (əgər varsa);
- Müsabiqədə iştirak edən müəllif və hər bir həm-müəllif(lər) haqqında peşəkar CV və onların təmsil etdikləri qurum(lar) haqqında qısa məlumat;
- Elmi fəaliyyət haqqında arayış (hər bir müəllif/həm-müəllif tərəfindən yazılır);
- Son 5 ildə dərc olunmuş elmi əsərlərin siyahısı (əgər varsa) (hər bir müəllif/həm-müəllif tərəfindən yazılır);
- Məqaləyə olan istinadlar (əgər varsa) (elektron linklər, surətlər);
- Məqalənin nəticələrinin müzakirə və ya məruzə olunduğu elmi nəşr və tədbirlər (aprobasiya) haqqında ətraflı məlumat;
- Müəllifin (həm-müəlliflərin) şəxsiyyət vəsiqə(lər)(s)inin surət(lər)i.

Müsabiqədə iştirakla bağlı sənədlər və digər müşayiətedici materiallar 2 nüsxədə olmaqla üç formatda (kağız üzərində, elektron məlumat daşıyıcılarına yazılmış şəkildə və elektron variantın elektron ünvana göndərilə bilməsi üçün elektron fayllar şəklində) aşağıdakı üsullarla təqdim olunmalıdır:

- Müsabiqədə iştirak etmək üçün sənədlərin və digər müşayiətedici materialların əslini (orijinalını) və / və ya A4 formatlı ağ kağızda çap olunmuş / surəti çıxarılmış variantını və skan edilmiş formasını elektron məlumat daşıyıcılarına (CD, DVD və s.) yazılmış versiyasını birlikdə Elmin İnkişafı Fondunun icraçı direksiyasının Bakı şəhəri, Yusif Səfərov küçəsi-27, 9-cu mərtəbə ünvanında yerləşən inzibati binasına həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə (elektron-poçt göndərişi zamanı mümkün itmələrdən və adi poçt daşınması zamanı təsadüfi mexaniki zədələrdən yayınmaq üçün);
- Müsabiqədə iştirak etmək üçün sənədlərin və digər müşayiətedici materialların elektron variantını Elmin İnkişafı Fondunun və Mərkəzi Bankın Tədqiqatlar və İnkişaf Mərkəzinin elektron-poçt ünvanlarına (info@elmfondu.az və imx@cbar.az) eyni zamanda göndərmək yolu ilə (bu zaman elektron məktubun "mövzu" ("subject") hissəsində aşağıdakı yazılışdan istifadə olunmalıdır: "MSM – Təqdim edən şəxsin soyadı və adı).

Sənədlərin və digər müşayiətedici materialların elektron variantının kağızda olan variantına tam uyğun olmasına məsuliyyəti təqdim edən şəxs daşıyır.

Məsləhət seminarları

Müsabiqə ilə bağlı sualların təşkilatçıların electron-poçt ünvanlarına göndərilməsi mümkündür. Digər tərəfdən, sənədlərin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində iddiaçılara kömək və sualların cavablandırılması məqsədilə Elmin İnkişafı Fondunda və Mərkəzi Bankın Tədqiqatlar və İnkişaf Mərkəzində məsləhət seminarlarının keçirilməsi nəzərdə tutulmuşdur. Bu haqda əlavə məlumat veriləcəkdir.


**Birgə Müsabiqə Komissiyası**

http://www.cbar.az/
http://sdf.gov.az/
http://www.sparkassenstiftung.de/

**Əlaqə:**
Telefon: (012) 489-08-94 (Elmin İnkişafı Fondu)
(012) 4938923/46 (Mərkəzi Bankın Tədqiqatlar və İnkişaf Mərkəzi)

Elektron-poçt ünvanı: info@elmfondu.az
imx@cbar.az